# "Gələcəyin ünvanı: Prezident İlham Əliyevin islahatlar strategiyası" mövzusunda konfrans keçirilib





Dekabrın 24-də Bakıda Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə "Gələcəyin ünvanı: Prezident İlham Əliyevin islahatlar strategiyası" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Yeni Azərbaycan Partiyasının üzvləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov konfransda çıxış edərək ölkəmizdə mütəmadi olaraq həyata keçirilən islahatların miqyasından və əhəmiyyətindən danışıb. Bildirib ki, XX əsrin son onilliyində Azərbaycanın dinamik inkişafında, onun gələcək tərəqqisinin əsaslarının formalaşdırılmasında ulu öndər Heydər Əliyevin islahatlar strategiyası misilsiz rol oynayıb. Prezident İlham Əliyevin bu strategiyanı uğurla davam etdirməsi nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. Azərbaycanın iqtisadi sferada belə yüksək inkişafı xalqımızın qürur mənbəyini təşkil edən mühüm amillərdən biridir. Azərbaycan bu inkişafla dünyaya iqtisadi qüdrətini, özünün liderinin peşəkarlığını və məharətini sübut edə bilib.

Azərbaycanın hazırda inkişafın yeni mərhələsinin astanasında olduğunu vurğulayan Baş nazirin müavini diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində çox mühüm dəyişikliklərə təkan verəcək yeni islahatlar konsepsiyası hazırlanmaqdadır. Qarşıdakı illərdə islahatlar konsepsiyasının uğurla həyata keçirilməsi Azərbaycanın yenidən özünün iqtisadi möcüzəsi ilə yanaşı, möhtəşəm inkişaf nümunələrini bütün dünyaya təqdim etməsinə imkan yaradacaq.

Əli Əhmədov vurğulayıb ki, bu konfrans YAP-ın intellektual gücünün və potensialının bu ideyaların həyata keçirilməsinə istiqamətləndirmək məqsədi daşıyır. Konfrans çərçivəsində təqdimatlarda Prezident İlham Əliyevin islahatlar konsepsiyasının ayrı-ayrı istiqamətləri barədə aydın təsəvvür yaratmaq mümkün olacaq.

Konfransın Prezident İlham Əliyevin doğum günündə keçirildiyini qeyd edən Əli Əhmədov dövlət başçısını xalqımızın və YAP-ın çoxminli üzvləri adından təbrik edərək, ali dövləti fəaliyyətində uğurlar arzulayıb.

Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sədri Rüfət Aslanlı bildirib ki, milli dövlətçilik ideologiyası, xarizmatik liderlik və bu liderlik ətrafında geniş konsensus Prezident İlham Əliyevin həyata keçirdiyi islahatların uğurla nəticələnməsini təmin edib. Bu dövr ərzində ölkəmizdə qeyri-neft iqtisadiyyatı iki dəfə artıb və onun ümumi daxili məhsulda payı 38 faizdən 66 faizə yüksəlib. Bu gün regionlarımız iqtisadi dövrəyə fəal cəlb olunub və hazırda iqtisadi dəyərin üçdə biri regionlarda formalaşır. Azərbaycan hökumətinin intensiv olaraq kommunal və nəqliyyat infrastrukturuna yatırdığı investisiyalar müsbət nəticələrini verir. Nəticədə ölkə ərazisinin 90 faizindən çoxu təbii qazla təmin olunub. Bu, dünya üzrə ümumi göstəricidən iki dəfə çoxdur. Bildirilib ki, irriqasiya sahəsində görülən tədbirlər nəticəsində 2008-2015-ci illərdə istehsala yararlı torpaq sahəsi 1270 kvadratkilometr artıb. Bu da ölkə ərazisinin 1,5 faizi deməkdir. Beləliklə, Azərbaycanda torpaqların 70 faizi istifadəyə yararlı vəziyyətə gətirilib.

Qeyd edilib ki, bu gün Azərbaycanda insan kapitalının inkişafı sahəsində fəxr ediləcək uğurlara nail olunub. Əhalinin hər 100 nəfərindən 77-nin internetə çıxış imkanı olduğunu deyən R.Aslanlı diqqətə çatdırıb ki, bu göstərici dünya üzrə 44 nəfər təşkil edir. Bu gün Azərbaycan kosmik ölkələr qrupunun üzvüdür. Həyata keçirilən siyasət ölkəmizdə məşğulluq səviyyəsinin artması ilə nəticələnib. Açılan iş yerlərinin 72 faizi məhz regionlarda yaradılıb. Bu isə ölkə əhalisinin sosial rifahının, dayanıqlı gəlirlərinin formalaşmasını təmin edib.

R.Aslanlı diqqətə çatdırıb ki, 2014-cü ildə dünyada baş verən iqtisadi proseslər Azərbaycanın postneft dövrünə keçid prosesini sürətləndirib. Bu il postneft iqtisadiyyatının qurulması üçün strategiya hazırlanaraq təqdim olunub. Prezident İlham Əliyevin dekabrın əvvəlində təsdiq etdiyi dayanıqlı inkişafla bağlı yol xəritəsi ölkəmizin daha geniş şaxələndirilmiş və dərin iqtisadi modelinin qurulmasını təmin edəcək. Həmin sənəddə sabit, dayanıqlı və səmərəli maliyyə sektorunun qurulması məsələləri də əksini tapıb. Bu məqsədlə strategiya bir sıra istiqamətləri - bank sektorunda restrukturizasiya proseslərinin tamamlanmasını, qeyri-işlək aktivlərlə bağlı problemlərin həllini, maliyyə infrastrukturunu əhəmiyyətli dərəcədə inkişaf etdirməyi nəzərdə tutur. Bununla əlaqədar yol xəritəsinin implementasiya proqramı hazırlanıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov vurğulayıb ki, ölkəmizin bugünkü inkişaf səviyyəsi müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin müdrik dövlət idarəçiliyi fəlsəfəsi Azərbaycanın dinamik inkişafı ilə yanaşı, bugünkü tərəqqisinin əsaslarının formalaşdırılmasında da mühüm rol oynayıb. YAP Heydər Əliyev siyasətinin aparıcı qüvvəsi kimi ölkəmizin qarşısında dayanan mühüm vəzifələrin həllində xalqımızın iradəsinin ifadəçisi kimi çıxış edir. Sıralarında cəmiyyətin bütün təbəqələrini birləşdirən partiya Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı inkişafında da yüksək fəallığı ilə seçilir.

İ.Kərimov deyib ki, Azərbaycanın müasir tarixi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli islahatlar nəticəsində sürətli inkişafla səciyyələnir. Dövlət siyasətinin təməlində Azərbaycan vətəndaşı, onun hüquq və azadlıqlarının qorunması dayanır. Bu isə dövlət-vətəndaş münasibətlərinin ən yüksək səviyyəsinin təzahürüdür. Dövlət idarəetməsində müasir dövrün tələblərinə uyğun islahatlar aparılır, dövlət idarəçiliyi təkmilləşdirilir, idarəetmə prosesləri modernləşdirilir və dövlət orqanlarının fəaliyyətində səmərəlilik artırılır. Dörd il əvvəl "ASAN xidmət" mərkəzlərinin yaradılması nəticəsində dövlət orqanlarının fəaliyyətində şəffaflıq artıb, məmur-vətəndaş münasibətləri daha yüksək səviyyəyə qaldırılıb.

Agentliyin sədri vurğulayıb ki, bu gün "ASAN xidmət" dövlət xidmətlərinin göstərilməsi sahəsində təkcə Azərbaycan cəmiyyətinə deyil, bütün dünyaya yeni yanaşma və düşüncə tərzi gətirib. "ASAN xidmət"də müxtəlif dövlət orqanları vahid brend altında, qarşılıqlı əməkdaşlıq şəraitində vətəndaşlara yüksək səviyyəli xidmət göstərirlər. Hazırda Azərbaycanda 11 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Bundan başqa, Prezidentin tapşırığına əsasən, 10 səyyar avtobus da müvafiq xidmətə cəlb olunub. İndiyədək 13 milyon vətəndaş "ASAN xidmət" mərkəzlərinin xidmətlərindən istifadə edib. Ümumi vətəndaş məmnunluğu isə 98 faiz təşkil edir. Bu məmnunluq Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlara əhalinin dəstəyinin göstəricisidir. "ASAN xidmət"in təcrübəsi dünyada maraqla qarşılanır və öyrənilir. Ötən il "ASAN xidmət" BMT tərəfindən yüksək mükafata layiq görülüb.

"ASAN xidmət"in korrupsiyaya qarşı mübarizədə uğurlu model olduğunu deyən İ.Kərimov qeyd edib ki, Azərbaycanın bu sahədə uğurlu təcrübəsi tərəfdaşlar üçün də nümunə təşkil edir. Ötən il Azərbaycan BMT-nin "Elektron hökumət" sorğusunda irəliləyişlərə nail olub. Azərbaycan "Elektron inkişaf indeksi" üzrə 30 pillə irəliləyərək 47-ci yeri tutub. Elektronlaşmanın daha bir uğurlu nümunəsi kimi, "ASAN ödəniş" sistemi yaradılıb. Bu sahədə daha bir yenilik Prezident İlham Əliyevin tapşırığı əsasında mərkəzləşdirilmiş formada "ASAN viza" elektron sisteminin yaradılmasıdır. Azərbaycana gəlmək istəyən əcnəbi vətəndaşlar bu sistemin sayəsində üç dəqiqə ərzində müraciət edərək üç gün müddətində viza ala bilirlər.

Diqqətə çatdırılıb ki, dövlət xidmətlərinin vətəndaşlara şəffaf və rahat şəkildə innovativ üsullarla göstərilməsi davamlı prosesdir. Yaxın vaxtlarda Bakıda "ASAN kommunal" mərkəzlərinin yaradılması nəzərdə tutulur. Digər yenilik isə "ASAN qatar" sisteminin fəaliyyətə başlamasının planlaşdırılmasıdır. Hazırda səyyar avtobuslarla vətəndaşlara göstərilən xidmətlər "ASAN qatar" sistemi vasitəsilə əhaliyə daha rahat üsullarla çatdırılacaq.

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev ölkəmizdə icbari tibbi sığortanın mahiyyəti, tətbiqi və bu sahədə nəzərdə tutulan tədbirlər barədə məlumat verib. Bildirib ki, icbari tibbi sığortanın tətbiqi, səhiyyənin maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi ölkəmizdə həyata keçirilən islahatların məntiqi davamıdır. Prezident İlham Əliyev bu məqsədlə Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı fərman imzalayıb. Bu fərmana uyğun olaraq, icbari tibbi sığortanın pilot qaydada tətbiqinə başlanılıb. İcbari tibbi sığortanın məqsədi səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirmək, əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığortanı təmin etməkdir.

Dövlət agentliyinin fəaliyyəti səhiyyə sisteminin maliyyələşdirilməsinin yeni iqtisadi əsaslarının qurulmasını təmin edəcək, həmçinin əhalinin tibbi xidmətlərdən istifadə imkanlarını artıracaq və səhiyyənin maliyyə kapitalını gücləndirəcək. Agentlik səhiyyə sahəsində aparılan islahatların əhalinin sağlamlığının yaxşılaşdırılmasına daha səmərəli şəkildə yönəldilməsini, bunun üçün icbari tibbi sığorta səhiyyə sahəsinə ayrılan vəsaitlərin vahid mənbədə cəmləşməsini və əhalinin tibbi xidmətlərdən istifadə üçün çəkilən xərclərinin bir mənbədən maliyyələşdirilməsini təmin edəcək.

Diqqətə çatdırılıb ki, sosial həmrəylik prinsipi əsasında fəaliyyət göstərəcək yeni maliyyələşmə sistemində dövlət vəsaitləri və icbari tibbi sığorta ödənişləri səhiyyənin maliyyələşməsinin başlıca mənbəyi olacaq. Aztəminatlı ailələr, əlillər, uşaqlar, tələbələr icbari tibbi sığorta ödənişlərindən azad ediləcək dövlətin sosial dəstəyi ilə təmin olunacaqlar. Mövcud resurslardan səmərəli və şəffaf şəkildə istifadə icbari tibbi sığortanın əsas prinsiplərdir. Məqsəd tibbi xidmətin keyfiyyətinin daha da stimullaşdırılması, ayrılan dövlət vəsaitinin daha ünvanlı və səmərəli istifadəsinin təmin edilməsidir. Müvafiq araşdırmalar aparılaraq əhalinin tibbi xidmət ehtiyacları qiymətləndirilir və icbari tibbi sığortanın tətbiqi üçün baza xidmətlər zərfi hazırlanır. Bu zərf dövlət və sığorta təminatlı hissələrdən ibarət olacaq.

Çıxışlardan sonra tədbir bədii hissə ilə davam edib.